**Mirzə M.** Ana, mən bu medalı şəhidlərimiz üçün qazandım // Respublika. - 2024. - 30 iyul. - **№ 159**. - S. 10.

**Şəhid Elnur Nəcəf oğlu Mustafayev 9 fevral 2002-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Atası Kəlbəcərin Ağcakənd, anası isə Oruclu kəndindəndir. Elnurun ata babası Abbas Mustafayev Kəlbəcər elinin tanınmış söz ustadlarından biri olub. "Dəmirçi" təxəllüsü ilə yazıb-yaradan Abbas kişinin bir neçə kitabı işıq üzü görüb. Onun ana babası Zakir Rüstəmov isə uzun illər Kəlbəcər rayon 18 nömrəli tam orta məktəbin direktoru, həmçinin ingilis dili müəllimi işləyib.**

Valideynlərinin, qohumlarının erməni terrorçularının işğalı nəticəsində öz yurdlarından qaçqın düşməsi Elnurun həyatında iz qoymaya bilməzdi. Uşaq vaxtlarından valideynlərindən, qohumlarından, xüsusilə də Firuzə nənəsinin dilindən düşmən tapdağı altında qalan yurdu barədə xatirələri dinləyərək böyüyürdü Elnur. Bütün bunlar, kiçik yaşlarından onun ailəsinə, vətəninə, dininə və mənəvi dəyərlərinə olan bağlarını daha da qüvvətləndirir, Vətənə, qəhrəmanlarımıza olan sevgisinin formalaşmasında xüsusi rol oynayır.

Kiçik yaşlarından Elnur idmanın güləş növü ilə məşğul olmağa başlayır. Güclü bədən quruluşu ona bu sahədə tez bir zamanda uğurlar qazanmağa imkan verir. O, yerli, həmçinin xarici (Türkiyə, İran, Dağıstan, Gürcüstan) yarışlarda iştirak edərək yüksək nailiyyətlər əldə edir. İran İslam Respublikasında 2017-ci ildə Aprel döyüşləri şəhidlərinin xatirəsinə həsr edilmiş turnirdə 1-ci yerə layiq görülür. O, evə gələrək böyük sevinc hissi ilə anasına deyir ki, "Ana, mən bu medalı şəhidlərimiz üçün qazandım".

Elnur 18 yaşı tamam olduqdan sonra 2020-ci il mayın 7-də hərbi xidmətə yollanır. Sentyabrın 27-də xain düşmənin növbəti təxribatından sonra şanlı Azərbaycan ordusu yağı düşmənə qarşı genişmiqyaslı əməliyyata başlayır. Cəsarət və şücaəti ilə seçilən Elnur Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Şuşa uğurunda döyüşlərdə iştirak edir. Atası ilə telefon danışıqlarından birində içərisi düşmənlə dolu olan 2 maşını məhv etdiyini deyir. Sanki o, şəhid olacağını çox-çox əvvəldən hiss edirmiş və hər fürsətdə ailəsini buna hazırlayırmış. Oktyabrın 30-da Qırmızı Bazar istiqamətində gedən şiddətli döyüşlərə qatılır. Şəhid silahdaşının döyüş meydanında qalan nəşini gətirərkən xain düşmənin gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalır. 31 oktyabr 2020-ci il tarixdə Elnur böyük izdiham ilə Sulutəpədə yerləşən Şəhidlər məzarlığında torpağa tapşırılır.

Elnur Mustafayev Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib